№ 1 (14) 2022

**Lətafət Musa qızı Həsənova**
***Bakı Dövlət Universiteti***
***Kitabşünaslıq və Nəşriyyat işi kafedrası magistrantı***
**hletafet511@gmail.com**

## XALQ ŞAİRİ MƏMMƏD ARAZIN DÖRDCİLDLİK "SEÇİLMİŞ ƏSƏRLƏRİ"NİN NƏŞRİ

***Xülasə:*** *Məqalədə görkəmli xalq şairi Məmməd Arazın dördcildlik "Seçilmiş əsərləri" nin hər bir cildi ayrı-ayrılıqda təhlil edilmişdir. Bu dördcildlikdə şairin bütün yaradıcılığı boyu yazıb-yaratdığı, oxucular tərəfindən sevilən əsərlərindən seçmələr toplanmışdır. Burada şairin təkcə şeirləri yox, həm də poemaları haqqında məlumat verilmişdir. Məqalədə Məmməd Arazın həm Sovet dövründə, həm də müstəqillik illərində yazdığı əsərlər toplanmışdır.*

***Açar sözlər:*** *Məmməd Araz, seçilmiş əsərlər, dördcildlik, nəşriyyat, redaktə şair.*

**Latafat Musa gizi Hasanova**

## Publication of "Selected works" by national poet Mammad Araz

***Summary:*** *The article analyzes each volume of the four-volume "Selected works" of the famous national poet Mammad Araz separately. This four-volume collection contains selections from the works written by the poet throughout his career and loved by readers. Not only the poet's poems, but also his works are given here. The article contains works written by Mammad Araz both during the Soviet era and during the years of independence.*

***Key words:*** *Mammad Araz, selected works, four-volume book, publishing house, editing.*

**Латафат Муса кызы Гасанова**

## Издание четырехтомника "Избранные произведения" народного поэта Мамед Араз

***Резюме:*** *В статье анализируется каждый том четырехтомных «Избранных произведений» известного национального поэта Мамеда Араза в отдельности. В этом четырехтомном сборнике собраны отрывки из произведений, написанных поэтом на протяжении всей его карьеры и полюбившихся читателям. Здесь представлены не только стихи поэта, но и его поэмы. В статье собраны произведения, написанные Мамедом Аразом как в советское время, так и в годы независимости.*

***Ключевые слова:*** *Мамед Араз, избранные произведения, четырехтомник, издательство, редакция.*





Xalq şairi Məmməd Araz XX əsr Azərbaycan ədəbiyyatında zəngin ədəbi irsə, sənətkarlıq qüdrətinə görə özünəməxsus yeri olan söz ustadıdır. Vətənə məhəbbət, xalq sevgisi, Azərbaycançılıq motivləri onun yaradıcılığının mərkəzində dayanır.

Şairin "Seçilmiş əsərləri" ilk dəfə 1986-cı ildə "Azərnəşr"də çapdan çıxmışdır. 478 səhifə həcmində olan kitaba S.Rüstəmzadə ön söz yazmışdır.

Məmməd Arazın dördcildlik "Seçilmiş əsərləri"nin bütün cildləri "Ozan" nəşriyyatında 2003-cü ildə nəşr edilmişdir. Əsərlərin tərtibçisi Gülxanım Fətəli qızı, redaktoru İradə Tuncaydır.

Akademik Bəkir Nəbiyev 348 səhifəlik I cildə "Şeirimizin xan çinarı" adlı ön sözündə yazır: "Məmməd Araz özü ilə təqribən eyni illərdə yaradıcılıq aləminə qədəm qoymuş həmkarları arasında yeganə şairdir ki, əsərləri belə geniş və bu qədər də səxavətlə nəşr olunur. Əlbəttə, bu, hər şeydən əvvəl onunla şərtləşir ki, şairin yaradıcılığı mənsub olduğu nəslin zəngin ədəbi təcrübəsinin ən qiymətli cəhətlərinin ləyaqətli təmsilçisidir. ... İlk kitablarından birini "Anamdan yadigar nəğmələr", poetik yetkinlik çağlarında nəşr etdirdiyi ən sanballı poemasını isə "Atamın kitabı" adlandırmaqla şair böyük təvazökarlıqla olsa da, demək istəyir ki, yazdıqlarım içində yaxşı nə varsa, onların hamısı üçün ilk növbədə atamla anama, mötəbər daşıyıcısı nənə-babalarımız olan zəngin mənəvi irsimizə, təkrarsız folklorumuza borcluyam. Şeirlərindən birində "Nənəmin kitabı" kimi mənalandırdığı bu böyük xəzinəni şair dərin minnətdarlıq duyğusu ilə belə açıqlayır" [1, s. 3]:

*Ellərin zəkası, xəyalı, dərdi,*
*Orda pərdə-pərdə dilə gələrdi.*
*Onda nəğmə vardı, bayatı vardı,*
*Onda sevinc quşu, qəm atı vardı.*

*...Kitabın ildırım sürəti vardı.*
*Bir anda bir əsri uçub aşardı.*
*Sinəmə el sazı asdı o kitab,*
*Sinəmə çox kitab yazdı o kitab.*

"Bu baxımdan M.Araz nigaran olmaya bilər. Onun dərc etdirdiyi 20-dən artıq kitabındakı ən yaxşı əsərləri məhz uzun ömürlü nəğmələr olub oxuyanların, dinləyənlərin fikrində, məktəb dərsliklərində, efir və ekran verilişlərində, mahnı mətnlərində fəaliyyət göstərməkdə, müəllifinə haqlı şöhrət gətirməkdədir" [1, s.4].

"Seçilmiş əsərləri"n II cildi 332 səhifə həcmindədir. Kitabda şairin əsərlərindən seçmələr toplanmışdır. Bu kitaba N.Şəmsizadə "Ver sözə ehya ki..." adlı ön söz yazmışdır: "Poeziyamızda söz qədrini artırmağa, sözə ehya verməyə nail olan belə ustadlaşmış "şagird"lərdən biri Məmməd Arazdır. Şairin "Seçilmiş əsərlər"inin II cildinə daxil olan şeirlərin hamısı Azərbaycan tarixinə "qırmızı qaranlıqlar" (Əlibəy Hüseynzadə) kimi daxil olmuş sovet dönəmində yazılıb" [2, s. 3].

"Təqdim olunan cildin materialini "Atamın kitabı" (1974) və məşhur "Dünya sənin, dünya mənim" (1983) kitabına daxil olan şeirlər təşkil edir. Bu kitablar bizim milli poetik təfəkkürün 70-80-ci illərdəki axtarışlarının ən uğurlu ifadəsidir. "Atamın

kitabı" Məmməd Araz inadından, şairin cəmiyyətə inadkar müqavimətindən xəbər verir" [2, s. 5].

"Seçilmiş əsərləri"n 368 səhifə həcmində olan III cildinə yazdığı "Yaddaşlara yazılan səs" adlı ön sözdə İsa Həbibli deyir: "Şair hələ 1956-cı ildə yazdığı "Bizim gənclik" şeirində özünü və sənətini "xalqımızın hər müqəddəs, hər mübariz çağırışına" həsr edəcəyini bəyan etmişdir. O, Azərbaycanda hamıdan əvvəl "Məndən, səndən ötən zərbə, Vətən, Vətən sənə dəydi" – demişdir. Vaxtilə Xəzərin ekologiyası barədə ən kəskin poetik həyacan təbilini Məmməd Araz səsləndirmişdir. Müxtəlif dövrlərin Azərbaycan gerçəkliyini mənalı və münasib şəkildə əks etdirən "Vətən mənə oğul desə", "Yenə Arazı gördüm", "Dağlara çağırış", "Dünya düzəlmir", "Ağlama" , "Qalx ayağa Azərbaycan" kimi ittiham və səfərbərlik ruhlu şeirlər Məmməd Araz qələmindən "göyərmişdir" [3, s. 4].

Bu kitabda Məmməd Arazın 1956-cı ildən sonrakı əlli ilə yaxın dövr ərzində yazdığı çoxsaylı şeirləri toplanmışdır. Kitabdakı bir-birindən qüvvətli, yaxud zəif şeirlər habelə onların yazıldığı yeri və vaxtı bildirən məlumatlar yaradıcılıq prosesinin çəkilmələri və qabarmalarını özündə əks etdirməyə xidmət edir. Kitab "Dünya sənin dünya mənim" başlığı altında "Qoruyun dünyanı", "Mənim də yaşım az deyil", "Qaytar məni", "Tələsdim", "Xoş gördük ala sağsağan", "Telefon", "Qayıdarsan", "O gözlərə baxmaram", "Olarmış" kimi şeirlərlə başlayır. Kitabın sonu isə "Çap olunmayan şeirlər" başlığı altında olan "Yanın işıqlarım", "Bülbül", "Rəssam ana", "Şərqin çağırışı", "O niyə küsdü?", "Oxşatma", "Mənim yolum", "Kefli İsgəndərlə görüş", "Uzaq diyarda bir gecə", "Fars müğənnisi" şeirlərlə bitir.

Məmməd Araz böyük ustadların təkcə söz-sənət sahəsində yox, həm də Vətən, milli mücadilə savaşındakı hələ də davam etməkdə olan yürüşünün keşikçisi, fəal iştirakçısı və hətta ağıllı tədbirli sərkərdələrindən biridir. Hələ 70-ci illərdə özünü şeirimizin "daş əsgəri" adlandıran şair indi ədəbiyyatımızın qaya sərkərdələrindən biridir. Məmməd Arazın dilindən çıxmış "vətən daşı olmayandan olmaz ölkə vətəndaşı" kimi poetik zərb-məsəl də ilk növbədə onun özünün timsalında uğurla sınaqdan çıxmışdır [3, s. 6].

"Seçilmiş əsərləri"n IV cildi 356 səhifə həcmindədir. Bu kitabda poemalar və tərcümələr yerləşdirilmişdir. Cildə Tofiq Mahmud "Məmməd Arazın poemaları" adlı ön söz yazmışdır. O, belə qeyd edir: "1961-ci ildə Məmməd Arazın "Üç oğul anası" kitabçasını alıb yavaş-yavaş dəniz sahilinə doğru addımladım. Elə gözəl hava vardı ki, dənizə baxmaq və sahildə bir az dincəlmək istədim. Bir ağaca söykənib təzə aldığım kitabı vərəqləməyə başladım. Birdə gördüm ki, şeirləri oxuyub qurtarmışam. Oxuduqca məmnun qalırdım, sevinirdim, marağım da artırdı. Poema elə güclü təsir buraxdı ki, təkrar-təkrar bəzi bəndləri bir də oxudum. Poemada həzinlik güclüdür. Bu həzinlik əvvəldən axıra qədər davam edir, hadisələri əhvalatları müşayət edən bir musiqi kimi səslənir, gah itir, gah kəskinləşir, gah bərkdən çıxır, gurlaşır, ümumi məzmunun oxucuya çatmasında rolu böyük olur. Məmməd Arazın ilk poeması kimi çox müvəffəqiyyətli çıxan bu 21 əsər tənqid tərəfindən də yaxşı qarşılandı, müxtəlif məqalələrdə ona layiqincə yüksək qiymət verildi. 1964-cü ildə çap olunmuş "Araz axır" poeması onun ilk poeması kimi müharibə mövzusundadır. Ancaq bu iki poema bir-birindən təmamilə fərqlənir. "Araz axır"da müharibə səhnələri yoxdur, onun doğurduğu facia də yoxdur, amma həyat eşqi və məhhəbbət var, ayrılıqdan doğan





həsrət, hicran duyğuları var. M.Arazın müharibə ilə əlaqədar "Əsgər qəbri haqqında ballada" adlı üçüncü poeması da çap olunub. Ümumiyyətlə, Məmməd Arazın poemaları lirik hisslərlə zəngindir. O, epik janrdan qaçır, təsvirçiliyə, ümumiliyə yox, konkretliyə, məzmunla bağlı duyğulara geniş yer verirdi [4, s. 3].

Bu kitabda onun "Üç oğul anası", "Yeddi bulaq əfsanəsi", "Araz axır", "Mən də insan oldum", "Paslı qılınc", "Atamın kitabı", "Qayalara yazılan səs" kimi poemaları yerləşdirilmişdir. Onun tərcümələri isə bunlardır: M.Y.Lermontov "Dəniz quldurú", N.A.Nekrasov "Rus qadınları", Rabindranat Taqor "Təbiətin intiqamı" Sergey Mixalkov "Forma". Bu əsərlərin hər biri böyük ustalıqla tərcümə edilmişdir.

Məmməd Arazın dördcildlik əsərlər külliyatı eyni tərtibat, eyni quruluşda çap edilmişdir. Hər bir cildə Azərbaycanın tanınmış alimləri giriş məqaləsi yazmışlar.

Bununla belə, burada bir sıra qüsurlarla qarşılaşmaq mümkündür. Məsələn, cildlərin heç birində annotasiya verilməmişdir. Halbuki annotasiyanın tərtib olunması kitabın gələcək taleyində əsas rol olunur.

Cildlərin heç birində kontrtitul verilməmişdir. Halbuki çoxcildli nəşrlərdə bu səhifənin verilməsi kitab aparatının tamlığını qoruyub saxlayır.

Demək olar ki, cildlərin üzərində rəssam işi yoxdur. Halbuki burada bölmələri, hissələri açmaq üçün rəssam tablolarından istifadə etmək olardı.

Görkəmli sənətkar Məmməd Arazın yaradıcılığı oxucular tərəfindən daim sevilir. Onun istər şeirlərində, istərsə də poemalarında özünə, nəfəsinə, yazı üslubuna, dilinə, sənətinə sadiq qaldığına görə onların həm məzmunu, həm də bədii qiyməti yüksəkdir. Azərbaycan poezyasının zənginləşməsində bu əsərlərin misilsiz rolu vardır. Məhz buna görə də M.Araz yaradıcılığının bir araya toplanaraq mükəmməl şəkildə nəşri çox vacibdir.

## ƏDƏBİYYAT

1. *Araz, Məmməd. Seçilmiş əsərləri / tərtib edən Gülxanım Fətəli qızı; redaktoru İ.Tuncay. Dörd cilddə, I cild: Şeirlər. – Bakı: Ozan, 2003. - 347 s.*
2. *Araz, Məmməd. Seçilmiş əsərləri / tərtib edən Gülxanım Fətəli qızı; redaktoru İ.Tuncay. Dörd cilddə, II cild. – Bakı: Ozan, 2003. - 330 s.*
3. *Araz, Məmməd. Seçilmiş əsərləri / tərtib edən Gülxanım Fətəli qızı; redaktoru İ.Tuncay. Dörd cilddə, III cild: Şeirlər. – Bakı: Ozan. - 2003, 367 s.*
4. *Araz, Məmməd. Seçilmiş əsərləri / tərtib edən Gülxanım Fətəli qızı; redaktoru İ.Tuncay. Dörd cilddə, IV cild: Poemalar, tərcümələr. – Bakı: Ozan, 2003. - 335 s.*
5. *Abasova L. Kitab aparatının mahiyyəti və quruluşunun elmi təhlili // Kitabşünaslıq və nəşriyyat işi: elmi-nəzəri və təcrübi jurnal, 2014, №1 (15), s.44-49.*